# Kiçikyaşlı məktəblilərin məktəbə dezadaptasiya səbəbləri

**Şahnaz Şahin**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** sahnaz.sahin@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos.Ü.A. Əfəndiyeva,
psixol.ü.f.d., dos.L.M. Qurbanova

**Açar sözlər:** adaptasiya, dezadaptasiya, nevroz, aqressiya.
**Ключевые слова:** адаптированный, дезадаптация, невроз, агрессия.
**Key words:** adaptation, deodorization, neurosis, aggression.

Məktəbə getməyə başladığı ilk gündən, kiçik məktəblilərin həyatında bütövlükdə əsaslı dəyişikliklər qeydə alınmağa başlayır. Belə ki, onların inkişafının sosial şəraiti dəyişir və bu şəraitə yeni-yeni elementlər qatılır; aparıcı fəaliyyət yenisi ilə əvəz olunur, ünsiyyət dairəsi genişlənir, oraya yeni insanlar kimi müəllim, sinif yoldaşları daxil olur. Məktəbə gedən uşağa ətrafdakıların münasibəti kökündən dəyişir və bu münasibət onun əldə etdiyi təlim uğurlarına əsaslanır. Bu fakt məktəbin avtoritetini uşağın gözündə qaldırır. Bu dövr, ümumiyyətlə, bütün kiçik məktəblilər üçün çətin dövr hesab edilir.

Son dövrlərdə psixoloqların, pedaqoqların diqqətini birinci sinfə yeni gələn bir qisim şagirdlərin məktəbə adaptasiyasında çətinliklərin yaranması faktı cəlb edir. Belə uşaqlar təlim proqramının və məktəb rejiminin öhdəsindən qismən, yaxud tamamilə gələ bilmirlər. Bu fakt "məktəb dezapatasiyası" termini adı altında hal – hazırda geniş araşdırılır.

Məktəb dezadaptasiyası problemi psixoloqlar tərəfindən müxtəlif analoji terminlər "qeyri-adekvatlıq effekti", "məktəb nevrozu", "təlimdə geri qalma" adı altında araşdırılmışdır. Məktəb dezadaptasiyasının müxtəlif təzahür formaları ilk dəfə keçən əsrin 80-ci illərində rus psixoloqu V.E.Kaqan tərəfindən təsvir olunmuşdur. Sonralar bu problem rus psixoloqlarından İ.V.Dvoymen, P.Yakobson, N.Ykopıta, B.Y.Levina, E.C.Skvortsova və başqalrı, Azərbaycan psixoloqlarndan isə M.Ə.Həmzəyev, B.H.Əliyev, S.M.Məcidova, Z.M.Aslanova, M.Məmmədov və başqaları tərəfindən araşdırılmışdır. Araşdırmaların hamısında məktəb dezadaptasiyası məktəb adaptasiyasının bu və ya digər səbəblərdən pozulması kimi dəyərləndirilir.

Təbiidir ki, adaptasiyanın kökündə inkişaf, yeniləşmə, dezadaptasiyanın kökündə isə bunun əksi, yəni geriləmə, tənəzzül və s. durur. Məktəb adaptasiyası psixoloji və fizioloji adaptasiyadan fərqlidir və mahiyyətcə sosial – psixoloji xarakter daşıyır. Bu adaptasiyanın əsasında şagirdin yeni məktəb şəraitinə uyğunlaşması durur. Bu da öz növbəsində, ondan xüsusi fəallıq tələb edir.

Bir sıra tədqiqatçıların fikrincə, məktəb dezadaptasiyası mənimsəmənin, davranışın şəxsiyyətlər arası qarşılıqlı münasibətlərin pozulmasında büruzə verir. Bu problemlə üzləşənlərə kiçik məktəbli yaşı dövründə, xüsusilə də məktəbə yenicə gələn birincilər sırasında daha çox rast gəlmək olur. Hal-hazırda belələrinin sayı daha da artmışdır. Bunun qarşısının alınması istiqamətində vaxtında müəyyən iş aparılmazsa uşaqların məktəbdə verilən biliklərə yiyələnə bilməməklə yanaşı, həmdə onların tərbiyəsində müəyyən çətinliklər əmələ gəlməsinə gətirib çıxara bilər. Bir sıra müəlliflər İ.N.Aqafonova, L.M.Kovalyova, V.Ekaqan məktəb dezadaptasiyasının aşağıdakı simptomlarını ayırırlar;

— ətrafdakılara qarşı aqressiyanın artması;
— özündə çatışmazlığın olması hissi;

— emosional pozuntular, əsəbilik;
— həddən ziyadə hiperaktivlik;
— tərslik, qorxular;
— hədsiz həssaslıq;
— diqqətsizlik, özünə inamsızlıq;
— yalançılıq, tənhalığa meyllilik;
— məktəbdən qorxmaq;
— əllərin əsməsi xəttin qırıq-qırıq olması.

Müasir şəraitdə məktəb dezadaptasiyası probleminə mövcud yanaşmaları nəzərdən keçirən S.D.Artyomov aşağıdakı istiqamətləri ayırır:

Tibbi yanaşma. Bu yanaşma müxtəlif psixi xəstəliklər zamanı uşağın ətraf aləmə, insanlara adaptasiyasının pozulmasını ön plana çəkir.

Sosial-psixoloji yanaşma. Bu yanaşma ilk növbədə, uşağın ətrafdakılarla sosial-psixoloji əlaqələrinin pozulmasını nəzərdən keçirir.

Ontogenetik yanaşma. Bu yanaşma dezadaptasiyanı yaş böhranları kontekstində nəzərdən keçirir və hesab edir ki, yaş böhranları zamanı inkişafın sosial şəraitinin dəyişməsi məktəbə yeni gələn uşağın qarşısında bir sıra yeni tələblər qoyur, fərd isə buna kifayət qədər hazır olmur.

Sosial-psixoloji adaptasiya zamanı şəxsiyyətin daxili aləmi dəyişir, onun konkret fəaliyyəti haqqında bilikləri, təsəvvürləri dəyişir, yeniləşir. Nəticədə fərd özünü təshih edir, özünü gerçəkləşdirir. Həmçinin, onun özünü qiymətləndirməsi və iddia səviyyəsində dəyişikliklər baş verir və adekvatlıq artır. Sonda fərd yeni biliklər, bacarıqlar əldə edir və özünü təsdiq etməyə cəhd göstərir. Sosial-psixoloji dezadaptasiya nəticəsində şəxsiyyətdə dezadaptiv vəziyyət əmələ gəlir və bu da dezadaptiv davranışa gətirib çıxarır. Dezadaptiv davranışın əsasını münaqişə təşkil edir ki, bunun da əsasında mühitə və onun tələblərinə qarşı davranışın pozulması formasında qeyri-adekvat davranış formalaşır. Dezadaptasiyanın başlanğıcında uşaq özünü itirir, konkret şəraitdə özünü necə aparacağını bilmir, kor təbiiliyə yol verir. Dezadaptasiya davamlı olduqda uşaqda daxili və xarici münaqişələr əmələ gəlir və bu da diskomforta gətirib çıxarır.

Məktəb dezadaptasiyasının yaranmasının əsas səbəbi kimi ilk növbədə, məktəblilərin fərdi, yaş və sosial xüsusiyyətlərinin nəzərə alınmamasıdır. Bəzi tədqiqatçılar, məsələn, M.R.Bityanova, Ə.M.Aleksandrovskaya belə hesab edirlər ki, məktəb dezadaptasiyasının əmələ gəlməsi müasir məktəbin xüsusiyyətləri və təlim prosesi ilə əlaqədardır. L.S.Vıqotskinin ifadəsi ilə desək, bu məktəblinin “inkişafının sosial situasiyasının” nəzərə alınmaması ilə əlaqədardır. Digərləri, E.D.Klentsova məktəb dezadaptasiyasının səbəbini müəllimlərin şagirdlərə qarşı qeyri-pedaqoji davranışında görürlər. Onlar bir faktı nəzərdən qaçırırlar ki, şagirdlər üçün müəllimin subyektiv əhəmiyyəti müxtəlif yaş dövrlərində eyni deyildir. Məsələn, kiçik məktəblilər üçün müəllim şəxsiyyətinin referentliyi çox yüksəkdir. Başqa biriləri məktəb dezadaptasiyasının səbəbini ailədə uşağa olan münasibətdə görürlər. Onlar hesab edirlər ki, məktəb dezadaptasiyasına məruz qalan şagirdlərin ailələrində uşaqlar valideynlərindən emosional dayaq, lazımi hörmət görmür, həddən artıq əzilir, yaxud laqeydliyə məruz qalır. A.M.Kovalyova, L.S.Vıqotski, A.N.Leontyev, M.İ.Lisina, E.O.Smirnova tədqiqatlarında göstərirlər ki, kiçik məktəblilərin məktəb həyatına adaptasiyasına mane olan başlıca amillərdən biri də aparıcı fəaliyyət növünün dəyişilməsidir. Bu vəziyyət, xüsusi ilə özünü aşağı qiymətləndirən, tez həyəcanlanan, ətrafda baş verənləri qavramaqda çətinlik çəkən, eləcə də əksinə, yüksək fəallığı ilə seçilən şagirdlərdə daha çox qeydə alınır. Problemin araşdırılması göstərirdi ki, müasir şə-

raitdə uşaqların məktəb həyatına hazırlanmasını, onların məktəbə adaptasiyasını asanlaşdırmaq istiqamətində aparılan işlərin gücləndirilməsinə baxmayaraq, məktəb dezadaptasiyasına məruz qalan kiçik məktəblilərin sayı azalmır və əksinə daha da artır. Belə olan halda, çıxış yolunu nədə axrtarmaq olar?

S.V.Persiyanseva bu problemin aradan qaldırılması üçün kiçik məktəblilərin yaş xüsusiyyətlərinə uyğun olaraq onların yeni sosial mühitə adaptasiyası üçün xüsusi proqram hazırlanmasını zəruri hesab edir. Bu barədə o yazır: "Əgər bu yaş dövründə şagird bilik qazanmağın sevincini duymasa, öz imkan və qabiliyyətlərinə inanmasa, yoldaşları ilə dostluq etməyi öyrənməsə, bu yaş dövrü üçün vacib olan senzitivlik mərhələsini itirər və sonralar onun yaradılması xeyli çətin olar".

Sosial adaptasiya, ümumiyyətlə, o cümlədən də, məktəbə adaptasiya tədricən baş verir və adətən öz-özünə deyil, başqalarının yardımı ilə həyata keçir. Yeni şəraitə, təlim fəaliyyətinə adaptasiya olunmaq üçün kiçik məktəblilər yaşlıların yardımı ilə bir sıra çətinlikləri gəf etməlidirlər. Bunlara:

— məktəb həyatına adaptasiya olunmaq üçün məktəbin norma, ənənə və qaydalarını mənimsəmək;

— intizam qaydalarına əməl etmək;

— təlim işinə məsuliyyətlə yanaşmaq;

— sinif yoldaşları ilə münasibətdə onların maraq və meyllərini nəzərə almaq və öz davranışını bunlara uyğunlaşdırmaq;

— yoldaşları və müəllimlə ünsiyyəti və birgə fəaliyyəti mənimsəmək;

— kollektivin ümumi maraqlarını və fəaliyyətini özününki ilə uzlaşdırmaq, təlimin ictimai əhəmiyyətini qəbul etmək və.s aid edilir.

**Məqalənin aktuallığı.** Son zamanlar psixoloqların, pedaqoqların diqqətini birinci sinfə yeni gələn bəzi şagirdlərin məktəbə adaptasiyasında çətinliklərin yaranması faktı cəlb edir. Belə uşaqlar təlim proqramının və məktəb rejiminin öhdəsindən qismən, yaxud tamamilə gələ bilmirlər. Bu fakt "məktəb dezapatasiyası" termini adı altında hal–hazırda geniş araşdırılır. Məqalədə məhz bu kimi vacib bir məsələyə həsr olunduğundan onu aktual saymaq olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə məktəb dezadaptasiyası probleminin geniş təhlili verilir, ötən əsrdən başlayaraq bu məsələ ilə bağlı alimlərin apardığı tədqiqatların nəticələrindən söhbət açılır. Eyni zamanda, bu problemin simptomları göstərilməklə müasir şəraitdə məktəb dezadaptasiyası probleminə mövcud yanaşmalar olunur, təlim fəaliyyətinə adaptasiya olunmaq üçün kiçik məktəblilərin üzləşdiyi çətinliklərdən danışılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, məktəbəqədər təhsil müəssisələrinin əməkdaşları, ali və orta ixtisas məktəblərinin tələbələri, magistrantlar, eləcə də valideynlər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. S.İ. Seyidov, M.Ə. Həmzəyev. Kiçik məktəb yaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı, 2007.

2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002.

3. Quliyev E.M. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri. Bakı, 1995.

4. Həmzəyev M.Ə. Kiçk məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı, 1969.

5. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: ÇİNAR-ÇAP", 2002.

**Ш. Шахин**

## Причины дезадаптации младших школьников

## Резюме

Изменение и адаптация к школе трудны и объединяют психологические, социальные и психофизиологические поля. Наблюдения показывают, что в результате тренировок для детей младшего возраста умственная и физическая нагрузка на них значительно возрастает. Это вызывает их волнение и усложняет их коллективную адаптацию. Это состояние иногда вызывает психические расстройства и невроз.

**Sh. Shahin**

## Reasons for maladaptation of primary schoolchildren

## Summary

Changing and adapting to school is difficult, and combines psychological, social, and psycho physiological fields. Observations show that as a result of training activities for younger students, the psychological burden on them increases significantly. This causes their excitement and complicates their collective adaptation. This condition sometimes causes mental disorders and neurosis.

**Redaksiyaya daxil olub:** 28.01.2020